ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya
# yuxarı yaş qrupu (10-11-ci siniflər)

**Ad**____________________ **Soyad**____________________

*İmtahan müddəti **180** dəqiqədir.
***1-10**-cu suallar **3 bal**, **11-20**-ci suallar **4 bal**, **21-30**-cu suallar **5 bal** ilə qiymətləndirilir.
*Hər səhv cavablandırılmış sual öz dəyərinin ¼-i qədər bal aparır.
*Nəzarətçilərə yalnız cavab kağızı təqdim olunur.
*Olimpiadanın nəticələrini 06.03.2024-cü il tarixindən etibarən **www.portal.edu.az** saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**
**24.02.2024**

**1.** Əsas qida mənbələri eyni olan çayların verildiyi bəndi müəyyən edin.
A) Çeyrankeçməz, Ağsuçay, Həkəri
B) Gilançay, Qudyalçay, Dəmiraparançay
C) Qanıx, Araz, Köndələnçay
D) Viləşçay, Lənkərançay, Katexçay
E) Kür, Samur, Qarqarçay

**2**. Uyğunluğu müəyyən edin.

| s/s | qoruq və ya milli park | xüsusiyyəti |
|---|---|---|
| 1 | Göygöl | İynəyarpaqlı ağaclara rast gəlinmir. |
| 2 | Bəsitçay | Yerləşdiyi inzibati rayon iki ölkə ilə həmsərhəddir. |
| 3 | Zəngəzur | Üç inzibati rayon ərazisində yerləşir. |
| 4 | Ağgöl | Bəbir və qonur ayı qorunur. |
| 5 | Korçay | Küdrü-Şirvan fiziki-coğrafi rayonunda yerləşir. |
| 6 | Qızılağac | Kür-Araz (Mərkəzi Aran) fiziki-coğrafi rayonunda yerləşir. |

A) 1, 2, 6 B) 1, 4, 6 C) 3, 4, 5 D) 2, 3, 4 E) 2, 3, 6

**3.** Xəritədə hüdudlandırılmış ərazidə verilmiş çay hövzəsinə aid olan əlamətləri müəyyən edin.




1. Dünyanın ən hündür şəlaləsi yerləşir.
2. Savanna və seyrək meşələr, dəyişkən rütubətli meşələr və rütubətli ekvatorial meşələr yerləşir.
3. Yalnız bir ölkənin ərazisində yerləşir.
4. Zəngin neft və qaz ehtiyatlarına malikdir.
5. Yay qışa nisbətən daha quraq keçir.
6. Əsasən geosinklinal sahəyə uyğun gəlir.

A) 3, 4, 6 B) 1, 2, 5 C) 1, 2, 4
D) 2, 4, 5 E) 1, 3, 6

**4**. Hal-hazırda neft, təbii qaz və daş kömür kimi enerji ehtiyatlarından enerji tələbatını ödəmək üçün intensiv istifadənin coğrafi mühitə yaratdığı mənfi təsirləri minimuma endirməyə aşağıdakılardan hansı uyğun ***deyil***?
A) İES-lərin və AES-lərin sayının artırılması
B) enerji istehsalında bərpa olunan enerji mənbələrinin payının artırılması
C) cəmiyyətlərdə enerjiyə qənaət şüurunun yayılması
D) enerji istehsalında oduncaq və təbii qaz kimi enerji resurslarının payının azaldılması
E) meşəsalma işlərinin genişləndirilməsi

**5.** Xəzər dənizi ilə bağlı doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. Yalnız mülayim iqlim qurşağında yerləşir.
2. Qapalı axarsız hövzə olduğu üçün orta duzluluğu dünya okeanının orta duzluluğundan daha yüksəkdir.
3. Qədim Sarmat dənizinin qalığıdır.
4. Orta dərinliyi 340 metrə bərabərdir.
5. Aqraxan yarımadası yerləşir.
6. Gəmiçilik kanalları vasitəsilə iki okeana çıxışı mövcuddur.

A) 3, 4, 6 B) 2, 5, 6 C) 2, 4, 6
D) 1, 3, 5 E) 1, 2, 4

**6.** İqlim diaqramının aid olduğu iqlim qurşağı üçün doğru fikirləri müəyyən edin.




1. İqlim vilayətlərinə bölünmür.
2. Nyasa gölünün ətrafında rast gəlinir.
3. Yayıldığı ərazilərdə codyarpaqlı həmişəyaşıl meşə və kolluqlar təbii zonasına rast gəlinir.
4. Yayıldığı ərazilərdə qonur və qəhvəyi torpaqlar üstünlük təşkil edir.
5. Braziliyanın ən cənub ucqar hissəsi bu iqlim qurşağında yerləşir.
6. Ekvator xətti ilə kəsişən müəyyən ərazilər bu iqlim qurşağında yerləşir.

A) 4, 5, 6 B) 3, 4, 5 C) 1, 2, 3 D) 1, 2, 6 E) 2, 4, 6

**7**. Zambezi çayını Niger çayından fərqləndirən xüsusiyyətlər:
1. Sutoplayıcı hövzəsi tropik işıqlanma qurşağında yerləşir.
2. Mənsəbinin yerləşdiyi okeanın sahəsi fasiləsiz olaraq genişlənir.
3. Mənsəbinin yerləşdiyi okeanın şimal sahillərində savannalar və seyrək meşələr təbii zonasına rast gəlinir.
4. Sutoplayıcı hövzəsinin yerləşdiyi ərazidə şaquli cisimlərin kölgəsi günorta vaxtı həm şimala, həm də cənuba düşə bilər.
5. Sutoplayıcı hövzəsi iki yarımkürədə yerləşir.
6. Mənsəbinin yerləşdiyi okean sahillərində sosialist ölkə mövcud deyil.
A) 1, 3, 5 B) 2, 4, 6 C) 3, 5, 6 D) 3, 4, 5 E) 2, 3, 5

**8.** Həmsərhəd olan ölkələri müəyyən edin.
A) İtaliya və Sloveniya
B) İsveçrə və Macarıstan
C) Slovakiya və Sloveniya
D) Macarıstan və Çexiya
E) Niderland və Fransa

**9.** Sayma gölünün yerləşdiyi ölkə ilə Balaton gölünün yerləşdiyi ölkənin ümumi xüsusiyyətlərini müəyyən edin.
1. Əhalisinin əsas hissəsi Ural dil ailəsinə mənsub olan xalqlardan təşkil edilmişdir.
2. Yüksək İEÖ qrupuna daxildir.
3. Göl çuxurlarının çoxu buzlaq mənşəlidir.
4. Ərazisi iki işıqlanma qurşağında yerləşir.
5. Unitar respublikadır.
6. Eyni iqtisadi birliyin üzvüdürlər.
A) 2, 5, 6 B) 2, 3, 5 C) 1, 4, 6 D) 1, 5, 6 E) 1, 3, 4

**10.** Böyük Qafqaz təbii vilayəti üçün doğru ***olmayan***, lakin, digər təbii vilayətlərdən hər hansı biri və ya bir neçəsi üçün doğru olan fikirləri müəyyən edin.
1. Mülayim iqlim qurşağı mövcuddur.
2. Paleozoy yaşlı süxurlara rast gəlinir.
3. Yayı quraq keçən soyuq iqlim tipi yayılmışdır.
4. Qara və əlvan metallurgiya xammalı olan filiz faydalı qazıntı yataqları mövcuddur.
5. İntrazonal landşaftlara rast gəlinir.
6. İki tektonik zonada yerləşir.
A) 1, 4, 5 B) 2, 3, 4 C) 2, 5, 6
D) 1, 2, 3 E) 3, 4, 6

**11.** 82° şimal enliyində qütb gündüzləri başlayan zaman 57° cənub enliyi üçün doğru fikirləri müəyyən edin.
1. Gecə və gündüzün adi növbələşməsi pozulacaq.
2. Gecə və gündüz uzunluqları arasındakı fərq maksimum olacaq.
3. Payız fəsli müşahidə edilir.
4. Günorta vaxtı şaquli cisimlərin kölgə uzunluqları cisimlərin öz uzunluğundan daha böyük olacaq.
5. 1 $m^3$ havanın su buxarı ilə doyma həddi minimuma çatar.
A) 3, 4 B) 1, 2 C) 2, 4 D) 1, 5 E) 3, 5

**12.** Doğru fikirləri müəyyən edin.

1. Ölkəmizdə iqtisadi rayonların sayı fiziki-coğrafi rayonların sayından daha çoxdur.
2. Gəncə-Daşkəsən və Şəki-Zaqatala iqtisadi rayonları həmsərhəddir.
3. Ən çox inzibati rayona malik olan iqtisadi rayon xarici ölkə ilə həmsərhəd deyil.
4. Köndələnçayın mənbəyi və mənsəbi eyni iqtisadi rayonda yerləşir.
5. Dağlıq Şirvan iqtisadi rayonunda əhəngdaşı və neft faydalı qazıntı ehtiyyatları mövcuddur.
6. Naxçıvan iqtisadi rayonunda dolomit və mis faydalı qazıntı ehtiyatları mövcuddur.
7. Qazax-Tovuz iqtisadi rayonunda neft təbii ehtiyatı mövcud deyil.
8. Bakı iqtisadi rayonunun tərkibinə 11 inzibati rayon daxildir.
A) 1, 4, 5, 6
B) 2, 3, 4, 5
C) 1, 4, 6, 8
D) 2, 4, 7, 8
E) 2, 4, 5, 6

**13**. İspaniya və Portuqaliya üçün oxşar olan hansı xüsusiyyətlər Almaniya və Polşa üçün fərqlidir?
1. Əfqanlar və taciklərlə eyni dil ailəsinə mənsubdur.
2. Codyarpaqlı meşə və kolluqlar təbii zonasına rast gəlinir.
3. Mülayim hava kütlələrinin təsirinə məruz qalırlar.
4. Kənd təsərrüfatının aparıcı sahəsi əkinçilikdir.
5. Atlantik okeanı hövzəsinə aid olan dəniz limanları mövcuddur.
6. Moldova ilə eyni dil qrupuna daxildir.
A) 1, 4, 6
B) 1, 3, 5
C) 2, 4, 6
D) 2, 3, 6
E) 2, 4, 5

**14**. Uyğunluğu müəyyən edin.

| **Doğru** | **Yanlış** |
|---|---|
| 1. İqlimin istiləşməsi (orta illik temperaturun 0,5–0,6°C artması) meşələrin sərhədlərinin dağlıq ərazilərdə 100 m yuxarı qalxmasına səbəb olur.<br>2. Ölkəmizin əhalisinin orta ömür müddəti 70 yaşdan aşağıdır.<br>3. Özbəkistanın həmsərhəd olduğu ölkələrdən yalnız birinin dünya okeanına birbaşa çıxışı var. | 4. Rusiyanın Ural və Sibir regionları köhnə (tənəzülə uğramış) rayonlar hesab edilir.<br>5. Bütün İEÖ-lərdə ticarət balansı müsbət, bütün İEOÖ-lərdə isə mənfidir.<br>6. Norveç İEÖ olduğu üçün yalnız hazır neft məhsulları ixrac edir. |

A) 2, 3, 5, 6 B) 1, 2, 4, 5 C) 2, 3, 4, 6
D) 1, 2, 3, 4 E) 1, 4, 5, 6

**15.** Verilmiş koordinat sistemi üzərində göstərilən nöqtələrlə bağlı hansı fikirlər ***yanlışdır***?




1. I nöqtə XXIII saat qurşağında yerləşir və bu nöqtədən keçən paralel xətti Malayziya, Myanma və Meksika ilə kəsişir.
2. II nöqtədə Bakı şəhəri ilə yerli vaxt fərqi 160 dəqiqədir və 21 mart tarixində Günəş II nöqtədə zenitdə olduğu saatda Bakıda şaquli cisimlərin kölgəsi şimal istiqamətini göstərəcək.
3. III nöqtədə ilboyu günorta vaxtı kölgə olmur və burada gecə və gündüzün adi növbələşməsi pozulmur.
4. IV nöqtə Atlantik okeanında yerləşir.
5. I nöqtənin yerləşdiyi şimala meyilli ərazidə 22 dekabrda günəş şüaları günorta vaxtı 46,5°-dən kiçik bucaq altında düşə bilər.
6. II nöqtədə Yerin öz oxu ətrafında orta fırlanma sürəti IV nöqtədən daha azdır.

A) 1, 2, 4 B) 1, 2, 3 C) 2, 3, 5
D) 3, 4, 6 E) 1, 5, 6

**16.** Kalimantan adası üçün doğru olan fikirləri seçin.
1. Ərazisində yerləşən bütün ölkələr monarxiya idarəetmə sisteminə malikdir.
2. VI saat qurşağında yerləşir.
3. Ərazisinin bir hissəsi orta qırışıqlıq vilayətində formalaşıb.
4. Ərazisindən axan çaylar iki okeanın sutoplayıcı hövzəsinə aiddir.
5. Şimal-şərq tərəfində Mindanao adası yerləşir.
6. Ərazisində həm sağa, həm də sola meyil edən küləklər mövcuddur.

A) 3, 5, 6
B) 1, 3, 5
C) 3, 4, 5
D) 1, 2, 6
E) 2, 4, 6

**17**. ***A*** *iqlim vilayətində qəhvəyi torpaqlara rast gəlinir.* ***A*** *iqlim vilayətinin yayıldığı ərazilərin çayları əsasən iyun, iyul, avqust aylarında daha bolsulu olurlar.* ***A*** *iqlim vilayətinə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin ərazilərində rast gəlinir*.
***A*** iqlim vilayəti ilə bağlı doğru fikirləri seçin.
1. Aid olduğu iqlim qurşağı həm şimal, həm də cənub yarımkürəsində tam zolaq əmələ gətirir.
2. A iqlim vilayəti Cənubi Amerika materikində yalnız bir ölkədə rast gəlinir.
3. A iqlim vilayətində rütubətlənmə əmsalı vahiddən böyükdür.
4. A iqlim vilayətinin yayıldığı ərazilərin sahillərində əsasən soyuq okean cərəyanları hakim olur.
5. A iqlim vilayətinə Madakaskar adasında rast gəlinir.
6. A iqlim vilayətində suvarma əkinçiliyi əsasən iyun, iyul və avqust aylarında həyata keçirilir.

A) 3, 4, 5
B) 2, 4, 6
C) 1, 3, 5
D) 1, 2, 4
E) 1, 2, 3

**18.** Fiziki-coğrafi rayonlara aid olan doğru fikirləri müəyyən edin.
1. 66,5° cənub enliyində qütb gündüzləri olduğu tarixdə ölkəmizdə ən uzun gecə Qonaqkənd fiziki-coğrafi rayonunda müşahidə edilir.
2. Kküdrü-Şirvan fiziki-coğrafi rayonu Kür çayının hər iki sahilində yerləşir.
3. Qanıx çayının mənsəbinin yerləşdiyi fiziki-coğrafi rayonda qışı quraq keçən mülayim isti iqlim tipi hakimdir.
4. Kiçik Qafqaz təbii vilayətinin hər hansı bir fiziki-coğrafi rayonunda yarımsəhra və quru-çöl iqlim tipinə rast gəlinir.
5. Kür dağarası çökəkliyi təbii vilayəti 3 xarici ölkə və 3 təbii vilayətlə həmsərhəddir.
6. Qarabağ vulkanik yaylası fiziki-coğrafi rayonunda yağıntıların orta illik miqdarı əsasən 600-1000 mm aralığındadır.
A) 2, 4, 6
B) 1, 3, 5
C) 1, 2, 4
D) 4, 5, 6
E) 1, 2, 3

**19.** Xəritə-sxemə əsasən, cədvəldə verilmiş hansı bəndin doğru ***olmadığını*** müəyyən edin.




| | | |
|---|---|---|
| A) | 1, 7 | ALADİ təşkilatına üzv ölkələrdir. |
| B) | 5, 6 | Zəlzələ və müasir dağəmələgəlmə zonasında yerləşirlər. |
| C) | 1, 2 | Meksika ilə həmsərhəddirlər. |
| D) | 3, 4 | İspandilli ölkələrdir. |
| E) | 3, 5 | Unitar inzibati-ərazi quruluşuna malikdir. |

**20.** Cədvələ əsasən materiklərə aid olan doğru fikirləri müəyyən edin.

| Şimali Amerika | Avrasiya |
|---|---|
| 1. Subtropik iqlim qurşağının üç, mülayim iqlim qurşağının iki vilayəti mövcuddur. | 4. Ərazisində mütləq və konstitusiyalı monarxiya, sosialist, unitar və federativ, anklav ölkələr mövcuddur. |
| 2. Bütün ucqar nöqtələri eyni yarımkürələrdə yerləşir. | 5. Ən böyük sahə tutan iqlim qurşağının bütün iqlim vilayətlərində yanvar ayının orta temperaturu 0°C-dən aşağı olur. |
| 3. Fiord tpli sahillərə rast gəlinir. | 6. Daxili axarsız hövzəsinin ən uzun çayı olan Amudəryadan suvarmada geniş istifadə olunur. |
| 7. Sakit okean sahillərində Mezozoy qırışıqlığında yaranan relyef formalarına rast gəlinir. | |

A) 1, 4, 6
B) 2, 3, 4, 7
C) 1, 4, 5, 7
D) 2, 3, 5
E) 2, 3, 6 7

**21.** Şəkildə təsvir edilən pik üçün doğru fikirləri müəyyən edin.



1. Aid olduğu dağ sistemi iki işıqlanma qurşağında yerləşir.
2. Aid olduğu dağ sisteminin şimal hissələri subarktik iqlim qurşağında yerləşir.
3. Aid olduğu dağ sistemindən başlayan çaylar yalnız bir okean hövzəsinə aiddir.
4. Aid olduğu dağ sistemi bir neçə ölkənin ərazisində yerləşir.
5. Subduksiya zonasında yerləşir.
6. Verxoyansk dağları ilə eyni yarımkürələrdə yerləşir.
A) 2, 3, 6 B) 1, 2, 5 C) 3, 4, 6 D) 1, 2, 4 E) 3, 4, 5

**22.** Ölkələrə və cədvələ əsasən uyğunluğu müəyyən edin.

1. Əfqanıstan
2. Polşa
3. Tailand
4. Kolumbiya
5. Norveç
6. Portuqaliya

| № | Ölkələr | Ümumi xüsusiyyətlər |
|---|---|---|
| I | 1, 5, 6 | Eyni dil ailəsinə mənsubdurlar. |
| II | 2, 4, 5 | İqtisadi cəhətdən fəal əhalinin əksəriyyəti iqtisadiyyatın II sektorunda çalışır. |
| III | 3, 4, 5 | Sahillərini iki okeanın suları yuyur. |
| IV | 1, 3, 6 | Yalnız bir işiqlanma qurşağında yerləşir. |
| V | 2, 3, 4 | Demoqrafik keçidin ikinci mərhələsindədir. |
| VI | 2, 5, 6 | Avropa İttifaqının üzvüdür. |

A) III, IV, V
B) I, II, VI
C) I, III, IV
D) II, IV, VI
E) II, III, VI

**23.** Okean cərəyanlarına əsasən uyğunluğu müəyyən edin.

1. Kanar
2. Anqola
3. Folklend
4. Kurosio
5. Alyaska
6. Kaliforniya

| № | Okean cərəyanları | Ümumi xüsusiyyətlər |
|---|---|---|
| I | 2, 5, 6 | Alçaq təyziq sahəsi və enən hava formalaşdırırlar. |
| II | 1, 3, 6 | Yüksək təzyiq sahəsi formalaşdırır və hərəkət etdikləri sularda duzluluğu azaldır. |
| III | 2, 4, 5 | Hərəkət etdikləri sahillərə yaxın quru hissəsində hidroqrafik şəbəkənin sıx olmasına səbəb olur. |
| IV | 4, 5, 6 | Eyni okeanda formalaşırlar və eyni materikin sahillərinə təsir edirlər. |
| V | 1, 2, 6 | Eyni istiqamətdə hərəkət edirlər |
| VI | 2, 3, 4 | Passat küləklərinin təsiri ilə yaranır. |

A) I, III, V
B) II, III, VI
C) III, IV, V
D) II, IV, VI
E) II, III, V

**24.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| № | Materiklər | Doğru fikirlər | Yanlış fikirlər |
|---|---|---|---|
| 1 | Afrika | Fəaliyyətdə olan vulkanları yalnız cənub yarımkürəsində yerləşir. | Şirin yeraltı sular dərində yerləşdiyi üçün vahələrə rast gəlinmir. |
| 2 | Şimali Amerika | Həm sönmüş həm də fəaliyyətdə olan vulkanlara rast gəlinir və ən uzun çayının mənsəbi subtropik iqlim qurşağında yerləşir. | Ərazisində yerləşən yalnız bir ölkənin sahillərini üç okeanın suları yuyur. |
| 3 | Cənubi Amerika | İtaypu SES-nin üzərində yerləşdiyi çayın mənbəyi San-Fransisku çayının mənbəyi ilə eyni iqlim qurşağında yerləşir. | Həm Şimal, həm də Cənub yarımkürəsində yerləşən hissəsində pampa təbii zonasına rast gəlinir. |
| 4 | Avrasiya | Bütün sosialist ölkələrinin okeana birbaşa çıxışı mövcuddur. | Demoqrafik keçidin II mərhələsində olan ölkələr mövcuddur. |
| 5 | Antarktida | Gecə və gündüzün adi növbələşməsinin pozulmadığı ərazilər mövcud deyil. | İsti okean cərəyanlarının təsiri ilə sahillərində donmayan dənizlərə rast gəlinir. |
| 6 | Avstraliya | Yanvar ayında havanın doyma həddi maksimuma çatır. | Ərazisində yerləşən Böyük Suayırıcı dağların şimal hissələrinin mütləq hündürlüyü cənub hissələrindən daha çoxdur. |

A) 3, 5, 6
B) 1, 2, 5
C) 2, 3, 4
D) 2, 3, 6
E) 1, 4, 5

**25.** Uyğunluğu müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. Moldova Ermənistan və Yunanıstan BSEC təşkilatının üzvüdür.<br>2. İordan çayının mənsəbinin yerləşdiyi dəniz Dünya okeanının ən duzlu dənizidir.<br>3. Çurun çayının yerləşdiyi ölkə OPEK (OPEC) təşkilatının üzvüdür. | 4. İtaliya, Pakistan və Hindistan G-20 ölkələr qrupuna daxildir.<br>5. Transqressiya mərhələsində Yer kürəsində yağıntıların orta illik miqdarı artmışdır.<br>6. İslandiya, Yava, Hönsü və Kanar adalarında fəaliyyətdə olan vulkan mövcuddur. |

A) 1, 3, 4
B) 2, 5, 6
C) 1, 3, 5
D) 1, 2, 6
E) 2, 3, 4

**26**. Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| I | Makkenzi çayının mənbəyi Böyük Kölə gölü qəbul edilir. | *doğru* |
| II | Ölkəmizdə ən çox yağıntı düşən məntəqədə yağıntının əsas hissəsi oroqrafik mənşəlidir. | *doğru* |
| III | Taxo, Po və İndiqirka çayları suvarmada geniş istifadə edilir. | *doğru* |
| IV | Missisipi çayının aşağı axarının olduğu ərazilərdə dəyişkən-rütubətli meşələr təbii zonasına rast gəlinir. | *yanlış* |

A) I, II və III
B) III və IV
C) yalnız IV
D) yalnız III
E) I, II və IV

**27**. Doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. Çukot və Kamçatka yarımadalarının ərazisi Mezozoy (Kimmeri) qırışıqlığında əmələ gəlmişdir.
2. Marian novu okean və materik litosfer tavalarının konvergent sərhədində formalaşıb.
3. Murovdağ və Zəngəzur dağ silsilələrində kar relyef formalarına rast gəlinir.
4. Litosfer tavalarının divergent sərhədlərində yer qabığının qranit qatı mövcud deyil.
5. Çay dərəsinin formalaşmasına Yer kürəsinin xəyali oxu ətrafında hərəkəti təsir edir.
6. Dnepr çayının mənbəyinin mütləq hündürlüyü 500 m-dən çoxdur.

A) 2, 4, 5 B) 1, 3, 5 C) 3, 4, 5
D) 1, 3, 6 E) 1, 2, 6

**28.** Tədqiqatçı 60° şimal enliyi və 90° şərq uzunluğunun kəsişməsindən cənub istiqamətdə 2220 km məsafədə hərəkət edərək **A** ölkəsinə çatmışdır. ***A*** ölkəsi ilə bağlı doğru fikirləri müəyyən edin.
1. G-20 ölkəsi deyil.
2. Ərazisindən axan çaylar üç okean hövzəsinə aiddir.
3. Tailand ölkəsi ilə həmsərhəddir.
4. Ərazisində cavan dağlara rast gəlinir.
5. Subekvatorial iqlim qurşağına rast gəlinir.
6. Meşə-çöl və çöllər, səhra və yarımsəhra təbii zonaları yayılmamışdır.

A) 1, 2, 4
B) 1, 3, 6
C) 3, 5, 6
D) 1, 2, 3
E) 2, 4, 5

**29.** Hərflərlə göstərilən dağlara aid olan doğru fikirləri müəyyən edin.

a. Qafqaz dağları b. And dağları
c. Appalaç dağları d. Atlas dağları
e. Ural dağları f. Alp dağları

1. a, b, f – Mütləq hündürlükləri 4000 m-dən çoxdur.
2. c, d, e – Paleozoy erasında formalaşıblar.
3. a, c, d – Ərazisi iki işıqlanma qurşağında yerləşir.
4. b, d, e – Cənub hissələrində qar xətti daha yuxarıdan keçir.
5. a, e, f – Şərq yarımkürəsində yerləşir.
6. a, d, f – Neotektonik proseslər səciyyəvidir.

A) 2, 4, 6
B) 1, 5, 6
C) 1, 3, 5
D) 4, 5, 6
E) 1, 2, 3

**30.** Doğru fikirləri müəyyən edin.

1. Gəncə şəhərində illik radiasiya miqdarı Şahbuz şəhərindəkindən daha azdır.
2. Araz çayında bolsulu dövr may, qıtsulu dövr isə avqust ayıdır.
3. Ölkəmizin bütün tektonik zonalarında milli parklar mövcuddur.
4. Afurca və Mucuq şəlalələri Böyük Qafqazın cənub yamacından axan çayların üzərində yerləşir.
5. 22 iyun tarixindən başlayaraq Xocavənd şəhərində gündüzün uzunluğu azalmağa başlayır.
6. Ölkəmizin Xəzər dənizi sahillərində yalnız bir iqlim tipi formalaşmışdır.

A) 3, 4, 5
B) 1, 2, 5
C) 1, 3, 6
D) 1, 2, 4
E) 2, 3, 6